BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2014*

**UOT 94 (476)**

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ BELARUSUN SOSİAL-İQTİSADİ İNKİŞAF TARİXİNDƏN

**A.Ş.ŞAHMURADOV**
***Azərbaycan Dillər Universiteti***
***agil1965@mail.ru***

*SSRİ-nin süqutundan sonra Belarusda sosial-iqtisadi inkişafın hüquqi-normativ bazasını yaratmaq üçün bir sıra qanunverici aktlar qəbul edilmişdi. Ölkədə özəlləşdirmə prosesi həyata keçirilsə də, güclü dövlət sektoru qalmaqdadır. Müstəqillik illərində Belarusda sosial-iqtisadi xarakterli çoxsaylı proqramlar qəbul edilmişdir, lakin onların hamısını yerinə yetirmək mümkün olmamışdır. Belarus yeni texnologiyaların tətbiqi sahəsində müəyyən problemlərlə üzləşir. Ölkə iqtisadiyyatında xarici investisiyalar müəyyən rol oynayır, lakin bu, mövcud imkanlar səviyyəsində deyildir. Belarus - Rusiya əlaqələri birincinin iqtisadi inkişafına müsbət təsir göstərir.*

**Açar sözlər:** Belarus, sosial-iqtisadi inkişaf, investisiya, xarici kapital

1990-cı il iyunun 27-də Belarusiya SSR Ali Soveti dövlət suverenliyi haqda Bəyannamə qəbul etdi. Bəyannamənin beşinci maddəsinə görə Belarusiyanın torpağı, onun təki və digər təbii resursları və onlardan istifadə hüququ Belarus xalqına aid edilir, respublika özünün vergi, gömrük və pul sistemini yaradır (1). 1991-ci il avqustun 25-də qəbul edilmiş "Belarus Respublikasının siyasi və iqtisadi müstəqilliyinin təmin edilməsi haqqında" qərara uyğun olaraq, Belarusun siyasi və iqtisadi müstəqilliyi elan olunmuş, respublika ərazisində yerləşən və ittifaq tabeçiliyində olan bütün müəssisə, təşkilat və idarələr, Belarus qanunvericiliyinə uyğun olaraq SSRİ orqanlarının idarəçiliyinə verilənlər istisna olmaqla, Belarus respublikasının mülkiyyətinə keçmişdi (2).

Siyasi və iqtisadi müstəqillik elan olunduqdan sonra respublikanın sosial-iqtisadi inkişafını təmin etmək üçün zəruri olan qanunlar qəbul edilmiş və hüquqi baza yaradılmışdı. 1991-1993-cü illərdə "Belarus Respublikasında sahibkarlıq haqqında", "Kəndin və aqrar-sənaye kompleksinin sosial-mədəni və iqtisadi inkişafı haqqında", "Belarus Respublikasında investisiya fəaliyyəti haqqında", "İqtisadi müflisləşmə və iflas haqqında", "Belarus Respublikasında əhalinin məşğulluğu haqqında", "Belarus Respublikasında təsərrüfat məhkəməsi haqqında", "Belarus Respublikası ərazisində xarici investisiyalar haqqında", "Qiymətli kağızlar və fond birjaları haqqında", "Əmtəə birjaları

haqqında", "Belarus Respublikası gömrük xidmətinin təşkilinin əsasları haqqında" , "Belarus Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "İnhisar fəaliyyətinin qarşısının alınması və rəqabətin inkişafı haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi və dövlət unitar müəssisələrinin açıq səhmdar cəmiyyətlərə çevrilməsi haqqında", "Torpaq üzərində mülkiyyət hüququ haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" və sosial-iqtisadi xarakterli digər qanunlar qəbul edilmişdi.

Qeyd etmək lazımdır ki, keçmiş SSRİ-nin başqa respublikaları ilə müqayisədə Belarus iqtisadiyyatı müəyyən fərqli cəhətlərə malikdir. Bu, hər şeydən əvvəl sovet dövründə mövcud olmuş iqtisadi sistemdən tam imtina olunmaması və iqtisadiyyatın əsas hissəsinin dövlət mülkiyyətində qalması ilə əlaqədardır.

Belarusda dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesi 1991-ci ildən həyata keçirilsə də, bu proses çox ləng həyata keçirilir və demək olar ki, bu günə qədər davam edir. L.İ. Panova bu prosesi yeddi mərhələyə bölür: 1) 1991-1992-ci illər - hazırlıq dövrü; 2) 1993-1994-cü illər – "çek" və ya "kiçik" özəlləşdirmə dövrü; 3) 1995-1996-cı ilin birinci yarısı – özəlləşdirmə sürətinin kəskin azaldılması dövrü; 4) 1996-cı ilin ikinci yarısı-1997-ci il – "durğunluq" dövrü; 5) 1998-2001-ci illər - özəlləşdirmədən imtina və ya onun ləngidilməsi dövrü; 6) 2002-2003-cü illər – özəlləşdirmənin canlanması dövrü; 7) 2004-cü ildən sonrakı mərhələ - özəlləşdirmənin zəif sürətlə həyata keçirildiyi və ya "nöqtə" özəlləşdirməsi dövrü. 2008-ci il yanvarın 1-dək Belarusda dövlət mülkiyyətində olan 4129 obyekt özəlləşdirilmişdi, bunların 1097–si respublika, 3032-si isə kommunal müəssisələr idi (3, 53-56) .

Bazar münasibətlərinin məhdud dairədə tətbiq olunduğu, iqtisadi yüksəkliklərin dövlətin əlində qaldığı Belarusda iqtisadi modernləşdirmə siyasəti müxtəlif dövrlər üçün nəzərdə tutulmuş dövlət proqramları əsasında həyata keçirilir. Bu sırada "BSSR-in bazar iqtisadiyyatına keçid proqramı" (1990), "1996-2015-ci illər üçün Belarus Respublikasının elmi-texniki tərəqqisinin kompleks proqnozu" (1992), "2010-cuilədək olan dövr üçün Belarus Respublikasının sosial-iqtisadi inkişafının kompleks proqnozu" (1993), "Belarus Respublikası iqtisadiyyatının struktur yenidənqurma proqramı" (1994), "2010-cu ilədək olan dövr üçün Belarus Respublikasının sabit inkişafının milli strategiyası" (1997), "2015-ci ilədək Belarus Respublikasının sosial-iqtisadi inkişaf konsepsiyası" (1998), "1998-2015-ci illərdə Belarus Respublikası sənaye kompleksinin inkişaf konsepsiyası və proqramı" (1998), "Belarus Respublikası xalq təsərrüfatının idarə olunmasının baş sxemi" (1996, 2000) və s. (4, 25). 2004-cü ildə "2020-ci ilədək Belarus Respublikasının davamlı sosial-iqtisadi inkişafının milli strategiyası" qəbul edilmişdi (4).

Belarus Respublikasının Davamlı İnkişafı üzrə Milli Komissiya və Belarus Respublikası Nazirlər Şurasının Rəyasət Heyəti tərəfindən bu çoxsaylı proqramların hamısının ciddi elmi təhlilə əsaslanaraq hazırlandığını iddia etmək düzgün olmazdı. Demək olar ki, az müddət keçməklə bir-birinin ardınca

işıq üzü görən bu sənədlərin qəbulundan illər keçsə də, hətta bəziləri üçün ayrılmış vaxt sona çatsa da, qarşıya qoyulan vəzifələrin heç də hamısını yerinə yetirmək mümkün olmamışdır. Sirr deyil ki, müasir texnoloji sıçrayışlar dövründə elmi, yüksək elmtutumlu sahələri inkişaf etdirmədən davamlı iqtisadi inkişafa nail olmaq qeyri-mümkündür. Bu sahədə Belarus Respublikasındakı vəziyyət heç də yuxarıda qeyd olunan proqramların məzmununa və ruhuna uyğun deyildir.

Belarus Respublikasında Ümumi Daxili Məhsulun elm tutumu 1990-cı ildə 2,27 %-ə bərabər idisə, 2005-ci ildə bu 0,68 %-ə, 2010-cu ildə 0,70 %-ə, 2011-ci ildə isə 0,76 %-ə bərabər olmuşdu. Elm və texnikanın iqtisadi səmərəliliyi və inkişafı üçün qeyd olunan indeksin minimum 1,5-2,0 % səviyyəsində olması tələb olunur. Müqayisə üçün qeyd edək ki, Avropa Birliyi ölkələrində bu göstərici 2,0 % və ya daha çoxdur. 2010-cu ildə Ümumi Daxili Məhsulun 0,31 %-i elmi, elmi-texniki və innovasiya fəaliyyətinin maliyyələşdirilməsinə xərclənmişdisə, 2011-ci ildə bu bir qədər də azalaraq 0,28 % təşkil etmişdi. Elmi fəaliyyətlə məşğul olanların sayı da ildən-ilə azalır. 1990-cı ildə elmi-tədqiqat işi ilə 107 min nəfərdən çox elm adamı məşğul idisə, 2011-ci ildə bu sahədə cəmi 31,2 min nəfər çalışırdı (5, 28).

Belarusun dinamik sosial-iqtisadi inkişafına mane olan amillərdən biri də istehsalatda tətbiq olunan texnologiyaların kifayət qədər köhnəlməsi ilə əlaqədardır. 2004-cü ilədək olan dövrdə tətbiq olunan texnologiyaların 48,2 %-i 1985-ci ilədək, sənaye müəssisələrinin istifadə etdikləri 13,2 min qabaqcıl istehsalat texnologiyalarının 31,4%-i 1994-cü ilədək istifadə olunan texnologiyalar idi. 2002-ci ildə 407 yeni texnologiya tətbiq olunmuşdu ki, bunun da 91 %-i yalnız Belarus üçün yeni idi (4, 45-46).

Texnoloji gerilik milli sərvətin tərkibində insan kapitalının deyil, təbii sərvətlərdən istifadənin xüsusi çəkisinin yüksək olmasını şərtləndirir. Məsələn, XXI əsrin əvvəllərində dünya üzrə milli sərvətin tərkibində insan kapitalının xüsusi çəkisi 67 %-ə, təbii ehtiyatların xüsusi çəkisi 16 %-ə, təkrar istehsal olunan resursların xüsusi çəkisi isə 17 %-ə bərabər olmuşdu. “Yeddilik” və Avropa Birliyi ölkələri üzrə bu göstəricilər uyğun olaraq 78 %, 4,0 % və 18 %, Belarusun da daxil olduğu MDB ölkələri üzrə isə 40 %, 38 % və 12 % təşkil edirdi (5, 37). Göründüyü kimi, insan kapitalından istifadəyə görə MDB ölkələri Avropa Birliyi ölkələrindən təxminən iki dəfə geri qalır.

Qloballaşma şəraitində xarici investisiyalar olmadan hər hansı bir ölkənin iqtisadi tərəqqisinə nail olmaq qeyri-mümkündür. Bu mənada Belarus da istisna deyildir. XX əsrin 90-cı illərində Belarus hökuməti tərəfindən xarici maliyyə institutlarına münasibətdə tətbiq etdiyi məhdudlaşdırıcı addımlar, daxili maliyyə mənbələrinin kifayət etmədiyi bir şəraitdə sosial-iqtisadi xarakterli proqramların maliyyə təminatını çətinləşdirirdi. Məsələn, 1990-cı ildə qəbul olunmuş “Banklar və bank fəaliyyəti haqqında” qanun 100 % xarici kapitalın iştirakı ilə bank təsis etməyə, birgə kredit təşkilatları, filiallar, qeyri-rezident bankların nümayəndəliklərini yaratmağa icazə verirdi, lakin bu zaman

nizamnamə kapitalında, xüsusi sektoru təmsil edən, yerli və ya xarici olmasından aslı olmayaraq, hər bir səhmdarın xüsusi payı 35 %-dən çox ola bilməzdi. Bunun nəticəsi olaraq, Belarusun bank sistemində xarici kapitalın xüsusi çəkisi çox aşağı olmuşdu. 2000-ci ilin əvvəli üçün Belarusun bank sisteminin ümumi nizamnamə fondunun təxminən 4 %-ni xarici kapital təşkil edirdi (6, 19).

XXI əsrin əvvəllərində Belarus hökumətinin xarici kapitala münasibətinin dəyişməsi, əvvəllər mövcud olan məhdudiyyətlərin aradan qaldırılması xaricdən ölkəyə kapital axınına müsbət təsir göstərdi. Nəticədə, Belarusda 100 % xarici kapitalla təsis olunmuş banklar meydana gəldi. Xarici bankların Belarus iqtisadiyyatına daxil olma metodlarından biri də, ölkədə mövcud olan bankların ələ keçirilməsi idi. Məsələn, 2003-cü ildə "Rayffayzenbank" "Priorbank"ın səhmlər paketinə sahib olmuşdu. 2007-ci ildə Ukraynanın "Delta" bankı "Atombank"ı, Rusiyanın "Alfa" bankı "Mejtorqbank"ı, 2008-ci ildə Gürcüstan bankı Belarus xalq bankını öz nəzarətinə keçirə bilmişdi (6, 19).

Sosial-iqtisadi sahəyə qoyulan xarici investisiyaların həcminə gəldikdə, 2003-cü ildə bu, 1,3 mlrd. dollar təşkil edirdisə, 2006-cı ildə 4,04 mlrd. dollara bərabər olmuşdu. 2007-ci ilin 9 ayı ərzində ölkə iqtisadiyyatına 3 mlrd. dollar xarici investisiya qoyulmuşdu (7, 261). Sonrakı illərdə xarici investisiya sahəsində ciddi irəliləyişin olduğunu söyləmək qeyri-mümkündür. 2010-cu ilin birinci yarısında Belarus Respublikasında iqtisadiyyatın real sektoruna qoyulmuş ümumi xarici investisiyaların həcmi 4,4 mlrd. dollar təşkil etmişdi. 2008-ci ilin nəticələrinə görə, Belarusda adambaşına düşən birbaşa xarici investisiyaların həcmi 223 dollar təşkil etmişdi. 2010-cu il üçün Belarusda xarici kapitalla işləyən 5 mindən çox kommersiya təşkilatı vardı. Ölkəyə kapital qoyan 70-dən çox ölkə arasında Rusiya, Avstriya, Böyük Britaniya, Kipr, Hollandiya və Almaniya seçilir. Bundan başqa, ölkədə transmilli şirkətlərin 60 filialı fəaliyyət göstərir. Avropa ölkələrinə məxsus xarici şirkətlər öz kapitallarını daha çox tibb avadanlıqları və müxtəlif içkilər istehsalı sahələrinə yönəldirlər. Belarusun enerji sektoruna kapital qoyan arasında Rusiyanın "Lukoyl", "Slavneft", "İtera-qrup", "Qazprom" və başqa şirkətləri əsas yer tutur (8, 9). Bununla yanaşı Rusiyanın Qorki və Pavlov avtomobil zavodları, "Severstal" səhmdar cəmiyyəti, Maqnitoqorsk metallurgiya kombinatı da Belarus iqtisadiyyatında təmsil olunurlar. 2009-cu ildə Rusiya Federasiyasının 83 subyektindən 76-sı Belarus regionları ilə iqtisadi əlaqələrə malik idi (9, 9).

Ümumiyyətlə, Rusiya ilə əlaqələrin genişləndirilməsi Belarus iqtisadiyyatının inkişafını təmin edən əsas amillərdəndir. Belə ki, Belarus Rusiyadan enerji daşıyıcılarını dünya qiymətlərindən xeyli ucuz qiymətə alır. Bundan başqa, Rusiya Belarusun əsas ticarət tərəfdaşı olaraq qalır. 2002-ci ildən 2007-ci ilədək olan dövrdə Belarusdan Rusiyaya mal ixracı 2 dəfə artmışdı. Buna baxmayaraq, Rusiya ilə ticarətdə Belarus mənfi saldoya malikdir. 2007-ci ildə bu ölkə ilə ticarətdəki mənfi saldo, 2006-cı il ilə müqayisədə 30 % artmışdı (7, 262-263).

Belarusun Rusiya ilə İttifaq dövləti təşkil etməsi də (10) onun iqtisadi

göstəricilərinə müsbət təsir göstərir. 2006-cı ildə Belarusun ümumi daxili məhsulu 79,2 trln. rubla bərabər olmuşdu ki, bu da 2005-ci il ilə müqayisədə 9,9 % çox idi. (11, 126). Ümumi daxili məhsulun həcmi sonrakı illərdə də artaraq, 2008-ci ildə 129,7 trln. rubl, 2010-cu ildə 164,4 trln. rubl, 2012-ci ildə isə 527,3 trln. rubl təşkil etmişdi (12). Rəqəmlərin nəzərəcarpacaq sürətlə artması heç də real iqtisadi artımı əks etdirmir. İnfilyasiyanın yüksək səviyyəsi burada əsas rol oynayır ki, bu da, Belarus iqtisadiyyatının ümumilikdə çox da güclü olmadığını göstərir.

## ƏDƏBİYYAT


1. Декларация Верховного Совета Республики Беларусь. 27 июля 1990 г. № 193-XII. О государственном суверенитете Республики Беларусь // http://www.pravo.by/main.aspx?guid=3871&p0=V09000193
2. Постановление Верховного Совета Республики Беларусь. 25 августа 1991 г. № 1019-XII. Об обеспечении политической и экономической самостоятельности Республики Беларусь. // http://newsby.org/by/1991/08/25/text21030.htm
3. Панова Л.И.Белорусская модель приватизации: этапы и их особенности. // Экономика и управление, 2008, №3, с. 52-57.
4. Национальная стратегия устойчивого социально-экономического развития Республики Беларусь на период до 2020 г. Минск: Юнипак, 2004, 200 с.
5. Шимов В.Н., Крюков Л.М. Модернизация национальной экономики – императив времени // Белорусский экономический журнал. 2013, № 2. с. 18-42.
6. Абалкина А. А. Иностранные банки в Беларуси: роль российских кредитных организаций. // Банковское Дело, 2012, №8, с. 18-22.
7. Республика Беларусь: общество, политика, экономика, люди. Минск: Белорусский Дом печати, 2008, 431 с.
8. Снопков Н. У Беларуси хороший потенциал для роста экономики. // Меркурый, 2010, №3, с. 7-10.
9. Тихомиров А. Позитивная тенденция последних лет – конкретный характер договоренностей. // Регионы России – в Республике Беларусь: Информационно интеграционный проект. Минск, Тессей, 2009, с. 7-10.
10. Союзное государство--вчера, сегодня, завтра: (вопросы и ответы). М.: Союз-Инфо, 2003, 104 с.
11. Люди. События. Факты. 2006-2007, Минск: БЕЛТА, 2007, 335 с.
12. Национальный статистический комитет Республики Беларусь. Валовой внутренний продукт // http://belstat.gov.by/homep/ru/indicators/gross.php


## ИЗ ИСТОРИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ БЕЛОРУСИИ В ГОДЫ НЕЗАВИСИМОСТИ

**А.Ш.ШАХМУРАДОВ**


**РЕЗЮМЕ**

После распада СССР в Белорусии были приняты ряд законодательных актов, в целях создания правовой основы социально-экономического развития. Несмотря на осуществление процесса приватизации, в стране сохраняется сильный государственный сектор. За годы независимости в Белорусии были приняты многочисленные программы

социально-экономического характера, но не все программы были реализованы. Беларусь столкнулась с некоторыми проблемами в сфере новых технологий. Иностранные инвестиции играют определенную роль в экономике страны, но не на уровне существующих возможностей. Белорусско-российские отношения оказывают положительное влияние на экономическое развитие первого.

**Ключевые слова:** Беларусь, социально-экономическое развитие, инвестиции, иностранный капитал

## FROM THE HISTORY OF SOCIO-ECONOMIC DEVELOPMENT OF BELARUSSIA IN THE YEARS OF INDEPENDENCE

**A.Sh.SHAKHMURADOV**

### SUMMARY

After the collapse of the USSR, a number of legislative acts were adopted in Belarussia in order to create a legal framework for socio-economic development. Despite the implementation of the privatization process, the country remains a strong public sector. During the years of independence Belarussia adopted numerous programs of socio-economic nature, but not all programs were implemented. Belarussia faces some challenges in the field of new technologies. Foreign investment plays an important role in the economy, but not at the level of the existing opportunities. Belarussian-Russian relations have a positive impact on economic development.

**Key words:** Belarussia, socio-economic development, investment, foreign capital